**Güzəştli ipoteka kreditlərindən istifadə etmək hüququ olan şəxslər:**

YAŞI 35-DƏN ÇOX OLMAYAN GƏNC AİLƏ ÜZVLƏRİ

1. Şəhidin övladları
2. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanının övladları
3. Azərbaycanın Milli Qəhrəmanının övladları
4. Məcburi köçkün və ya ona bərabər tutulan şəxs
5. Ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs
6. Ən azı 3 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs
7. Fəlsəfə doktoru elmi dərəcəsi olan şəxs
8. İdman sahəsində xüsusi xidmətləri olan şəxs (fəxri bədən tərbiyəsi və idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçısı (I, II və ya III yer)

YAŞINDAN VƏ AİLƏ VƏZİYYƏTİNDƏN ASILI OLMAYARAQ DİGƏR ŞƏXSLƏR

1. Şəhid ailəsinin üzvü (əri/arvadı)
2. Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı (özü, əri/arvadı)
3. Azərbaycanın Milli Qəhrəmanı (özü, əri/arvadı)
4. Elmlər doktoru elmi dərəcəsi olan şəxs
5. Ən azı 15 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxs
6. Ən azı 3 il hərbi xidmətdə olan (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan başqa), həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları ("Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.6-cı, 41.0.7-ci, 41.0.8-ci, 41.0.10-cu, 42.0.3-cü, 42.0.4-cü və 42.0.5-ci maddələrində nəzərdə tutulan hallarda ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçular istisna olmaqla)
7. Ən azı 3 il daxili işlər orqanlarında xidmət keçən xüsusi rütbəsi olan şəxs
8. Ən azı 3 il elmi vəzifədə işləyən elmi işçilər (müraciətləri qəbul edilən elmi işçilərin çalışdığı elmi müəssisə və təşkilatların siyahısı)
9. Ən azı 15 il dövlət ümumi təhsil müəssisəsində müəllim işləyən şəxs

*Qeyd: Güzəştli ipoteka kreditindən istifadə etmək hüququ olan ailə və ya şəxs bu hüquqdan yalnız bir dəfə istifadə edə bilər*

Ətraflı məlumat üçün:
https://mida.gov.az/az/rules/kim/